**Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində M. F. Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasının mikrofilm və audiovizual avadanlığı ilə təchiz olunması məqsədilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini imzalamaq səlahiyyətinin verilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Yaponiya Hökumətinin "İnkişaf üçün Rəsmi Yardım Proqramı" çərçivəsində M. F. Axundov adına Azərbaycan Dövlət Milli Kitabxanasının mikrofilm və audiovizual avadanlığı ilə təchiz olunması məqsədilə Yaponiya Hökuməti tərəfindən ayrılan qrant barədə Notalar Mübadiləsi sənədlərini Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyəti Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilsin.

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən sənədləri Azərbaycan Respublikası Hökuməti adından imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının mədəniyyət naziri Polad Bülbüloğluna verilməsi barədə Yaponiya Hökumətinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 sentyabr 2004-cü il
№ 373